# Vətən Müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12 (I kitab), maddələr 2465, 2516; 2019, № 3, maddə 369, № 5, maddə 790, № 11, maddə 1693, № 12, maddə 1909; 2020, № 5, maddə 506; Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 174-VIQD və 175-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddəyə "Azərbaycan Respublikasının ən yüksək təltifi - "Heydər Əliyev" ordeni;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin:

"Zəfər" ordeni;
"Qarabağ" ordeni;";

1.2. 2-ci maddəyə "Qızıl Ulduz" medalı;" hissəsindən əvvəl "Vətən Müharibəsi Qəhrəmanı" medalı;" hissəsi və "İgidliyə görə" medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin:

"Cəsur döyüşçü" medalı;
"Döyüşdə fərqlənməyə görə" medalı;
"Suqovuşanın azad olunmasına görə" medalı;
"Cəbrayılın azad olunmasına görə" medalı;
"Xocavəndin azad olunmasına görə" medalı;
"Füzulinin azad olunmasına görə" medalı;
"Zəngilanın azad olunmasına görə" medalı;
"Qubadlının azad olunmasına görə" medalı;
"Şuşanın azad olunmasına görə" medalı;
"Kəlbəcərin azad olunmasına görə" medalı;
"Ağdamın azad olunmasına görə" medalı;
"Laçının azad olunmasına görə" medalı;
"Vətən müharibəsi iştirakçısı" medalı;
"Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalı;".

**Maddə 2.** "Azərbaycan Respublikasının "Zəfər" ordeninin statutu" və "Azərbaycan Respublikasının "Zəfər" ordeninin təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** "Azərbaycan Respublikasının "Qarabağ" ordeninin statutu" və "Azərbaycan Respublikasının "Qarabağ" ordeninin təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 4.** "Vətən Müharibəsi Qəhrəmanı" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 5.** "Cəsur döyüşçü" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Cəsur döyüşçü" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 6.** "Döyüşdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Döyüşdə fərqlənməyə görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 7.** "Suqovuşanın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Suqovuşanın azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 8.** "Cəbrayılın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Cəbrayılın azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 9.** "Xocavəndin azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Xocavəndin azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 10.** "Füzulinin azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Füzulinin azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 11.** "Zəngilanın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Zəngilanın azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 12.** "Qubadlının azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Qubadlının azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 13.** "Şuşanın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Şuşanın azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 14.** "Kəlbəcərin azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Kəlbəcərin azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 15.** "Ağdamın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Ağdamın azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 16.** "Laçının azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Laçının azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 17.** "Vətən müharibəsi iştirakçısı" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Vətən müharibəsi iştirakçısı" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 18.** "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2020-ci il*